# Saatlıda bu il 41 min tona yaxın pambıq yığılıb

## *Sahələrdən ötən ildə olduğundan 10,4 min ton çox məhsul toplanıb*

**Bu il Saatlı rayonunda pambıqçılıq sahəsində rekord göstəricilər əldə olunub. Belə ki, rayon fermerləri son 25 il ərzində ilk dəfə olaraq, sahələrdən 40 min 796 tondan çox “ağ qızıl” toplayıblar. Saatlı Dövlət Aqrar İnkişaf Mərkəzindən (DAİM) bildirdilər ki, məhsulun tədarük məntəqələrinə təhvili davam etdirilir.**

Qeyd etmək lazımdır ki, bu il rayonda 13 min 741 hektar sahədə pambıq əkilib. Əkin sahələri 2018-ci illə müqayisədə xeyli azalsa da, sahələrin orta məhsuldarlığının artırılması hesabına məhsul istehsalını kəskin surətdə artırmaq mümkün olmuşdur. Rayonda “ağ qızıl” yığımı 2018-ci ilə nisbətən 10,4 min tondan çox artmışdır.



Özünüz müqayisə edin. 2018-ci təsərrüfat ilində Saatlıda 15 min 815 hektar sahədə pambıq əkini üçün müqavilə bağlanmış və mövsümün sonunda hər hektardan 19,2 sentner olmaqla, ümumilikdə 30 min 447,8 ton pambıq toplanmışdır. 2019-cu ildə isə rayon üzrə 13 min 741 hektar sahədə pambıq əkini üçün müqavilə bağlanmışdır. Bu il hər hektardan orta məhsuldarlıq 29,7 sentner olmaqla, ümumilikdə 40 min 796 ton pambıq toplanmışdır.

Saatlı Rayon İcra Hakimiyyətinin başçısı Nazim İsmayılov bildirdi ki, rayonda bu il pambıqçılığın inkişafında əldə olunan parlaq uğurlar, ilk növbədə, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin ölkəmizin digər bölgələri kimi, Saatlı rayonunun inkişafına göstərdiyi davamlı diqqət və qayğının sayəsində mümkün olmuşdur. Dövlətimizin başçısı regionlara etdiyi səfərlər çərçivəsində son 16 ildə 7 dəfə Saatlı rayonunda olmuş, görülən işlərlə maraqlanmış, mühüm sosial layihələrin icrası istiqamətində sərəncamlar imzalamışdır.

Bu yaxınlarda Saatlı rayonunda oldum, rayon sakinləri ilə, pambıqçılarla görüşdüm. Hər yerdə əhalinin Prezident İlham Əliyevin müdrik daxili və xarici siyasətini ürəkdən bəyəndiyinin şahidi oldum. Saatlılılar dövlət başçısının aqrar sektorun inkişafı istiqamətində atdığı mühüm addımları birmənalı olaraq dəstəkləyirlər.

Saatlı RİH-in başçısı N.İsmayılovun sözlərinə görə, son illər ölkəmizdə qeyri-neft sektorunun, o cümlədən pambıqçılığın inkişafına dövlət qayğısının artması fermerləri bu sahədə daha həvəslə çalışmağa sövq edib. Bu il onların çoxu çiyid səpinindən tutmuş son becərmə işlərinə qədər hər bir aqrotexniki tədbiri vaxtında və yüksək keyfiyyətlə həyata keçiriblər. Pambıq yığımı kampaniyası ilk gündən mütəşəkkil şəraitdə təşkil olunub. Nəticələr çox sevindiricidir. Ən başlıcası, bu il pambıqçılıq sahəsində çalışanların gəlirləri nəzərəçarpan dərəcədə artıb.



Yerli mütəxəssislər qeyd etdilər ki, builki pambıq yığımı zamanı texnika xüsusilə səmərəli fəaliyyət göstərib. Saatlı DAİM-dan məlumat verdilər ki, rayonda kifayət qədər pambıq yükləyiciləri və 347 ədəd traktor yedəkləri mövcuddur ki, bu da toplanılmış pambığın vaxtında və itkisiz emal müəssisələrinə çatdırılmasını şərait yaradıb.

Rayonda pambıqçılıq sahəsində təcrübəli fermerlər çoxdur. Onlar aqrotexniki qaydalara ciddi əməl etmək və işə can yandırmaq hesabına orta məhsuldarlığı ilbəil artırmağa nail olurlar. Belə fermerlərdən ikisinin göstəriciləri barədə qısa da olsa məlumat vermək istərdim.

Təcrübəli fermer Nizami Məmmədovun rəhbərlik ediyi fermer təsərrüfatı bu il 44 hektar sahədə pambıq əkib-becərib. Kollektiv hər hektardan orta məhsuldarlıq 44,7 sentner olmaqla 196,7 ton məhsul əldə edib. Mirnazim Ağayevin başçılıq etdiyi kollektiv isə bu il 93 hektar pambıq sahəsindən 420 tondan çox məhsul toplayıb. Orta məhsuldarlıq 45 sentnerdən çox olmuşdur.

**Fermer M.Nağıyev dedi:**

– Biz, fermerlər dövlətimizin başçısı möhtərəm İlham Əliyevin pambıqçılığın sürətli inkişafına göstərdiyi dəstəyi hər an hiss edirik. Bu gün bizim nə gübrə, nə yanacaq, nə də texnika sarıdan heç bir problemimiz yoxdur.

Saatlı DAİM-də qeyd etdilər ki, Sahibkarlığın İnkişafı Fondunun vəsaiti hesabına yeni iş yerlərinin yaradılması üçün rayon sahibkarlarına 20 min manat güzəştli kreditlər verilmişdir. Bu, onlarca yeni iş yerinin açılması ilə nəticələnmişdir.

Rayonda yeni istehsal və emal müəssisələrinin yaradılması istiqamətində də işlər müvəffəqiyyətlə həyata keçirilir. 7 min hektar ərazidə “Aqropark” salınır ki, burada soyuducu anbar, istixanalar, tövlələr, yem zavodu, quşçuluq fabriki tikiləcək və kənd təsərrüfatı məhsullarının istehsalı və emalı ilə bağlı müxtəlif bitki növləri becəriləcəkdir.

***Səməd HÜSEYNOĞLU,***
***“Xalq qəzeti”nin bölgə müxbiri***